

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 80 (21.741)

*28 aprel 2017-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti yeni nəslin ictimai fəallığını təmin edir

***Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə "Ümummilli lider Heydər Əliyevin milliləşmə siyasəti, Azərbaycançılıq ideologiyası və Azərbaycan gəncliyi qarşısında qoyduğu vəzifələr" mövzusunda "dəyirmi masa" keçirilib.***

Tədbirdə çıxış edən universitetin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev bildirib ki, Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Ümummilli lider Azərbaycanda hakimiyyətə gəldikdən sonra milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, milli kadrların yetişdirilməsi, Azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirməyə başlayıb.

Vurğulanıb ki, hələ 1953-cü ildə keçmiş Sovetlər Birliyinin Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi vəzifəsində çalışan ulu öndər göstərilən təzyiqlərə baxmayaraq, təhlükəsizlik orqanlarının yad ünsürlərdən təmizlənməsində, milliləşmə siyasətinin aparılmasında, milli kadrların irəli çəkilməsində böyük cəsarət, prinsipiallıq nümayiş etdirib. Müstəqil Azərbaycan dövləti bundan sonra da dahi öndərin Azərbaycançılıq ideyasını, ana dilini, milli tarix və mədəniyyətimizi, mənəvi dəyərlərimizi qoruyub yaşadacaq.

Ümumi tarix kafedrasının müəllimi, doktorant Arzu Abdullayev çıxışında bildirib ki, bu gün gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması ölkə siyasətində vacib yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan gəncləri bütün sahələrdə uğurlar əldə edirlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tələbələrə ulu öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin prioritet istiqamətləri və Azərbaycan gəncliyinin üzərinə düşən vəzifələrdən danışıblar. Bildirilib ki, müdrik siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə gənc nəslin milli ruhda yetişdirilməsi məqsədilə 1994-cü il iyulun 26-da Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradılıb, nazirliyin yerli strukturları formalaşıb. Gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görülüb, bir sıra dövlət proqramları qəbul edilib. Hazırda ölkəmizdə, eləcə də muxtar respublikamızda gənclər siyasəti uğurla həyata keçirilir.

Sonda tələbələrin fikirləri dinlənilib, sualları cavablandırılıb.

**Nərmin CABBAROVA**

## Quruculuq işləri yaşayış binalarına yeni görkəm verir

*Hər il olduğu kimi, cari ildə də muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərindəki təmirə ehtiyacı olan ictimai yaşayış binalarında aparılan quruculuq işləri davam etdirilir. Görülən işlər nəticəsində həmin binalar yeni görkəm alır.*



"İstiqlal" küçəsi Naxçıvan şəhərindəki mərkəzi ünvanlardan biridir. Son bir neçə ildə bu küçədə yerləşən yaşayış binaları əsaslı şəkildə yenidən qurulur, mənzillərin sahələri genişləndirilir, bu binalarda yaşayan sakinlərin mənzil-məişət şəraiti xeyli yaxşılaşdırılır. Ötən dövrdə bu küçədə yerləşən 111 nömrəli yaşayış binası "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən yenidən qurulub. İlkin mərhələdə binanın qəzalı vəziyyətdə olan eyvanları və sakinlər tərəfindən artırılan hissələr sökülüb, sonrakı mərhələdə bina beton sütunlarla möhkəmləndirilib, dam örtüyü, pəncərələr dəyişdirilib. Binanın eni 3 metrlik məsafədə artırılıb ki, bu da sakinlərin mənzil sahəsinin genişlənməsinə şərait yaradıb. Artıq bütün işlərin yekunlaşdırıldığı binada su-kanalizasiya, qaz və elektrik xətləri tamamilə yenilənib, dam örtüyü və pəncərələr dəyişdirilib. Binanın fasadı muxtar respublikada istehsal olunan yerli daş üzlük plitələrlə üzlənib, müasir memarlıq elementləri ilə zənginləşdirilib.

Quruculuq tədbirləri yaxınlıqdakı 113 nömrəli yaşayış binasında da aparılır. Artıq həmin binada söküntü işlərinə başlanılıb.

Naxçıvan şəhərində əsaslı şəkildə yenidən qurulan yaşayış binalarından biri də həmin küçədə yerləşən 79 nömrəli binadır. "Dizayn" Məhdud





Məsuliyyətli Cəmiyyətinin inşaatçıları cari ilin mart ayından bu binada yenidənqurma işlərinə başlayıblar. Ötən müddətdə yaşayış binasının ön hissəsindəki eyvanlarda arakəsmələr hörülüb, arxa hissədə isə hörgü işləri davam etdirilir. Binanın hər iki hissəsində suvaq işləri aparılır, dam örtüyü yenilənir. Eyni zamanda yaşayış binasının daxilində də suvaq işlərinə başlanılıb, zirzəmi hissə təmizlənib, kommunikasiya xətlərinin dəyişdirilməsi davam etdirilir. Binanın 1-ci mərtəbəyədək olan fasad hissəsi üzlənəcək, digər hissələr isə milli memarlıq üslubuna uyğun olaraq dekorativ naxışlarla bəzədiləcək.

Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər sakinlər tərəfindən insan amilinə göstərilən qayğı kimi qiymətləndirilir.

**✍ Səbuhi HƏSƏNOV**

***Muxtar respublikada təşkil olunan əmək yarmarkaları əhalinin məşğulluğunun təmin edilməsi baxımından əhəmiyyətli rol oynayır.***

## Əhalinin məşğulluğu daim diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 2017-ci ilin aprel ayında əmək yarmarkaları keçirilib.

Bu məqsədlə muxtar respublika ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda olan boş iş yerləri haqqında məlumat əldə edilib, vakant iş yerləri məşğulluq mərkəzləri tərəfindən yarmarkaya çıxarılıb. Muxtar respublikanın kütləvi informasiya vasitələrində əmək yarmarkalarının keçirilməsi barədə məlumatlar verilib.

Keçirilən əmək yarmarkalarına 125-i özəl sektor olmaqla, 229 idarə, müəssisə və təşkilatdan 1608 boş iş yeri təqdim edilib. Təqdim olunmuş iş yerlərindən 1305-i dövlət, 303-ü qeyri-dövlət müəssisələrinə aid olub.

Əmək yarmarkalarında 206 nəfər daimi işlə təmin edilib. 125 nəfər dövlət müəssisələrində, 81 nəfər isə özəl sektorda işə düzəlib. Üç nəfər kənd xidmət mərkəzlərində işlə təmin olunub.

Gənclər və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində saxlanılıb. Onlardan 61 nəfəri 29 yaşadək gənclər, 5 nəfəri isə sağlamlıq imkanları məhdud şəxslərdir.

Keçirilən əmək yarmarkalarında 16 nəfər peşə hazırlığı kurslarına cəlb edilib. Onlardan 14 nəfəri kənd xidmət mərkəzlərində işlə təmin olunmaq üçün kurslara göndərilib.

**Xəbərlər şöbəsi**

*28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür*

## Təhlükəsiz və sağlam iş yerlərinin yaradılması sosial siyasətin tərkib hissəsidir

***2003-cü ildən etibarən Beynəlxalq Əmək Təşkilatı tərəfindən 28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günü elan edilmişdir.***

Ölkəmizdə əməyin mühafizəsi, işçilərin hüquqlarının qorunması, təhlükəsiz və sağlam iş yerlərinin yaradılması dövlətimizin sosial siyasətinin əsas istiqamətidir. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə əmək qanunvericiliyi sahəsində həyata keçirilən islahatlar, əmək münasibətləri və əməyin mühafizəsi sahəsində beynəlxalq prinsiplərə uyğun normativ-hüquqi aktların qəbul edilməsi, Azərbaycan Respublikasının Konstitusiyasında hər kəsin sağlam və təhlükəsiz şəraitdə işləmək, əmək və istirahət hüquqlarının təsbit olunması bu sahədə geniş fəaliyyət imkanları yaratmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ölkəmizdə əmək hüquqlarının təmin olunmasını diqqətdə saxlayır, əməyin mühafizəsi sahəsində qanunvericilik təkmilləşdirilir, əmək şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.

Naxçıvan Muxtar Respublikasında da əməyin mühafizəsi tədbirləri uğurla həyata keçirilir, əmək hüquqlarının təmin olunması diqqət mərkəzində saxlanılır, o cümlədən əmək şəraitinin yaxşılaşdırılması, istehsalat mədəniyyətinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq işləri, yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək hüquqlarının qorunması və əməyin mühafizəsi tədbirlərinin genişləndirilməsini şərtləndirir. 2011-ci ildə istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, 2012-ci ildə tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması və 2014-cü ildə tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən müşavirələrdə verilən tapşırıqların icrası əməyin mühafizəsi ilə bağlı tədbirlərin daha da gücləndirilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda isə qeyri-formal məşğulluğun qarşısının alınması və əməyin mühafizəsi istiqamətində daha geniş tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Hazırda muxtar respublikada işçilərin həyatı və sağlamlığı üçün təhlükə yarada biləcək hadisələrin qarşısının alınması məqsədilə profilaktik tədbirlər görülür, tikinti aparılan obyektlərdə işçilərə sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlər hazırlanır, müəssisələrdə əməyin mühafizəsi və kadrlar üzrə mütəxəssislərin biliklərinin artırılması məqsədilə kurslar təşkil edilir, işçilər peşələrinə uyğun xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin edilirlər.

Əməyin mühafizə qaydalarının pozulması, avadanlıq və qurğuların istismar qaydalarına əməl olunmaması, əmək və icra intizamının pozulması kimi hallar iş yerlərində bədbəxt hadisələrin baş verməsinə səbəb olur. Bunun üçün hər bir işçi əməyin mühafizəsi üzrə müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulan tələbləri öyrənməli və onlara əməl etməlidir.

Əməyin mühafizəsi istiqamətində aparılan nəzarət və maarifləndirmə tədbirləri cari ilin birinci rübündə də davam etdirilib. Görülən tədbirlər nəticəsində istehsalatda baş vermiş bədbəxt hadisələrin qarşısı alınmışdır. Cari ilin birinci rübündə əməyin mühafizəsinin təşkili ilə bağlı 13 obyektə baxış keçirilmiş, fərdi mühafizə vasitələrindən istifadə etməyən 5 nəfər iş sahəsindən uzaqlaşdırılmış, 7 işçi isə fərdi mühafizə vasitələri ilə təmin edilmişdir. Bu dövrdə istehsalatda ağır xəsarətalma və işçinin ölümü ilə nəticələnən hadisə baş verməmişdir. Qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı tədbirlər də davam etdirilmiş, 123 obyektə nəzarət zamanı 78 işçi ilə yeni əmək münasibətinin rəsmiləşdirilməsinə, 132 işçinin isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində "İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi", "Yükləmə-boşaltma və yüklərin daşınması zamanı əməyin mühafizəsi qaydalarına əməl olunması", həmçinin "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" mövzularında təşkil olunan kurslara 69 müəssisənin mütəxəssisləri cəlb edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Müdriklər deyirlər ki, yaddaşlarda yaşamaq əbədi ömür qazanmaqdır. Bu insanlara ölməzlik qazandıran onların nəcib, xeyirxah əməlləri, Vətən naminə gördükləri böyük işlərdir. Yalnız belə işıqlı simaların adları bəşər tarixinə qızıl hərflərlə yazılır. İmzası, dəst-xətti ilə seçilən belə uca şəxsiyyətlərdən biri – dünya şöhrətli alim Zərifə Əziz qızı Əliyevanın adı da əbədiyyət ünvanında həmişəlik qərar tutub. Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə, həmçinin nadir xeyriyyəçilik xüsusiyyətlərinə görə xalqımızın qəlbində, ölkəmizin tarix salnaməsində dünya şöhrətli alim, nümunəvi pedaqoq, şəfqətli həkim, eləcə də qayğıkeş Azərbaycan qadını kimi daim yaşayacaqdır.***

# Akademik Zərifə Əliyeva qayğıkeşliyi, nəcibliyi ilə xalqımızın yaddaşında əbədilik qazanıb



Bu gün görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın gözlərini işıqlı dünyaya açmasından 94 il ötür. Kim bilir, bəlkə də, o, gözlərini dünyaya elə gələcəkdə yüzlərlə, minlərlə insanın gözləri dünya işığına həsrət qalmasın deyə açmışdı. Adı VƏTƏN naminə yorulmadan çalışan 3 dahi insanın – görkəmli alim və dövlət xadimi Əziz Əliyevin qızı, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı və ölkəmizi yeni inkişaf mərhələsinə çıxaran, beynəlxalq aləmdə onun nüfuzunu daha da artıran Prezident İlham Əliyevin anası olmaq bir qadın üçün böyük xoşbəxtlikdir.

1923-cü il aprelin 28-də Kəngərli rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım Əliyevanın xarakterində Azərbaycan ziyalısının ən gözəl xüsusiyyətləri cəmləşmişdir. Adında əks olunan zəriflik qədər zərif, dünyaya göz açdığı Naxçıvan qədər möhkəm iradəli və əyilməz, nəğməsini dinləyərək böyüdüyü Araz qədər şən və mehriban olmaq Zərifə Əliyevanın xarakterinin əsas cizgilərini təşkil edirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin dediyi kimi: ***"Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır".***

İstedad, zəhmət və ağılla qazanılan uğur illər keçdikcə zənginləşir və ondan bütün cəmiyyət yararlanır. Zərifə xanım da həyat uğurlarına məhz bu keyfiyyətləri sayəsində nail olmuşdu. O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Ali təhsil illərində fundamental biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və o, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi.

Zərifə xanım Əliyeva 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini əla qiymətlərlə bitirmişdir. Məhz həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Ona qarşı təsirli müalicə üsulları isə yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublika səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Amma ağır xəstəliklə mübarizədə bu, kifayət deyildi. Respublikada göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını və profilaktika tədbirlərini işləyib hazırlamaq tələb olunurdu. Zərifə xanım da işıqsız gözlərə nur bəxş etmək, dünya işığına həsrət qalan insanlara həyat eşqini qaytarmaq arzusunda idi.

Məhz bu arzu onu Moskva şəhərinə aparır və Zərifə xanım Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. O, ixtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıdır. 1949-cu ildən Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayan Zərifə xanım 1950-ci ildə aspiranturaya daxil olaraq elmi axtarışlarını davam etdirir. Görkəmli oftalmoloq müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olmağa başlayır.

Ölkəmizdə traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar qazanır. Görkəmli alim tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, bir az da dəqiq desək, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən – sintomisindən istifadə olunmasına həsr edir. Bu dövrdə Zərifə xanım yalnız çalışdığı institutda fəaliyyət göstərməklə kifayətlənmirdi, o, respublikanın şəhər və rayonlarını gəzərək xəstəliyin yaranma səbəblərini araşdırır və xəstəlik ocaqlarında kompleks şəkildə müalicə-profilaktik tədbirlər həyata keçirirdi. Uğurlu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etmişdir.

Zərifə Əliyeva 1960-cı ildən 1967-ci ilədək Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona "Oftalmologiya ixtisası üzrə böyük elmi işçi" adı vermişdir. 1967-ci ildə Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur. Bu dövrdə Zərifə xanım həkimlik fəaliyyəti ilə məşğul olaraq, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verir, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edirdi. Bununla yanaşı, o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş də aparırdı.

1968-ci ildən başlayaraq Zərifə xanım məqsədyönlü şəkildə oftalmologiyanın digər problemləri, o cümlədən görmə orqanının patologiyası ilə ciddi məşğul olmağa başlamış, bu sahənin ilk təşəbbüskarı olmuşdur. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. O, peşə xəstəlikləri üzərində iş apararkən bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri müayinədən keçirmişdir. Geniş miqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxarmışdır.

Klinik tədqiqatların, eksperimentlərin və çoxillik müşahidələrin nəticələri görkəmli oftalmoloq-alimin doktorluq dissertasiyasının əsas istiqamətini təşkil etmişdir. Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən biri olan H.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə müdafiə etmişdir. Dissertasiya işi yüksək qiymətləndirilmiş və 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi adı verilmişdir. Həmin il Zərifə Əliyevanın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir tədbir Bakıda ilk dəfə keçirilirdi və təbii ki, böyük təşkilatçılıq bacarığı, zəngin təcrübə tələb edirdi. Bu plenumun keçirilməsi həm Azərbaycanda, həm də keçmiş ittifaqın ən yaxşı akademik müəssisələrində oftalmologiya xidmətinin inkişafına, habelə elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynamışdır.

Zərifə xanım doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmiş, 1983-cü ildə isə həmin kafedranın müdiri olmuşdur. Elə ilk gündən Zərifə Əliyeva ətrafına istedadlı gənc həmkarlarını toplayaraq kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil etmişdir. Amma kafedranın mövcud bazası elmi tədqiqatların keçirilməsi tələblərinə cavab vermirdi. Təşəbbüs göstərmək lazım gəlirdi və Zərifə Əliyeva bu problemin həlli yolunda bir sıra konkret addımlar atmışdır.

Görkəmli alimin elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin diferensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, məsələn, "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair məhz bu məsələlərə həsr olunmuşdur. Həmin dövrdə Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş maraqlı tədqiqatlar aparmışdır. Gərgin tədqiqatlar nəticəsində o, bir sıra elmi məqalələr və iki monoqrafiya – "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi" monoqrafiyalarını çap etdirmişdir. Zərifə Əliyeva həm də gözün zədələnməsinin profilaktikası və müalicəsi imkanlarını öyrənmişdir. Bir sıra elmi işlərində o, görmə orqanı zədələndikdə mövcud olan cərrahiyyə əməliyyatları üsullarını araşdırmış, həmin üsulların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr işləyib hazırlamışdır. Bu tövsiyələr cərrahiyyə əməliyyatına məruz qalan zədələnmiş görmə orqanının müalicəsini xeyli yüngülləşdirmişdir. Zərifə Əliyevanın daktiologiyadan bəhs edən "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb etmişdir. Zərifə xanım fundamental "Terapevtik oftalmologiya" kitabının müəlliflərindən biridir. Bu kitab indi də hər bir oftalmoloq üçün stolüstü kitabdır.

Zərifə xanım Əliyevanı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Zərifə xanımın çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Zərifə Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir.

Oftalmoloq-alimin çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini almışdır. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. 1983-cü ildə isə görkəmli alim Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. Bununla yanaşı, o, geniş ictimai fəaliyyətinə görə keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuş, bir sıra orden və medallara layiq görülmüş, "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adını almışdır.

*Görkəmli alimin qəlblərdə yaşayan xoş xatirəsini və xidmətlərini xalqımız daim minnətdarlıq hissi ilə xatırlayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Bu böyük şəxsiyyətin keçdiyi həyat yoluna nəzər salarkən aydın görmək mümkündür ki, elmi tədqiqatların bacarıqlı təşkilatçılığı, dərin elmi düşüncə və parlaq pedaqoji istedad onun şəxsində üzvi surətdə qovuşmuşdur. Böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, məşğul olduğu sahələrin hamısı Zərifə xanımın istedadı və fədakarlığı sayəsində aparıcı istiqamətə çevrilmiş və bir nümunə səviyyəsinə qalxmışdır. Bu gün istisnasız olaraq demək mümkündür ki, Zərifə xanım Əliyeva həm həkimliyin, həm alimliyin, həm pedaqoqluğun, bunlarla yanaşı isə həm də insanlığın ali zirvəsinə yüksəlmişdir".***

**"Şərq qapısı"**

*Litvalı jurnalist Gintaras Visočkas rəhbəri olduğu "Slaptai" (www.slaptai.lt) qəzetinin 25 aprel 2017-ci il tarixli nömrəsində Naxçıvan Muxtar Respublikası barədə ingilis dilində məqalə nəşr etmişdir. Həmin məqaləni oxuculara təqdim edirik.*

# Naxçıvan – Azərbaycanın kəşf edilməmiş diyarı, Nuh Peyğəmbərin yurdu




Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkib hissəsidir. Bu gözəl təbiətli diyar şimal-qərbdən Türkiyə, şimal-şərqdən Ermənistan, cənubdan isə İran İslam Respublikası ilə həmsərhəddir. Naxçıvanın ölkənin digər hissəsindən təcridi Stalinin 1924-cü ildə Zəngəzur mahalını Ermənistanın nəzarətinə verməsi ilə başlayıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ (bu Azərbaycan torpağı hal-hazırda Ermənistanın işğalı altındadır) münaqişəsi nəticəsində erməni qüvvələri Naxçıvanı atəşə tutmuş, lakin Kərki kəndindən başqa heç bir ərazini işğal edə bilməmişlər. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri, ərazisi 5500 kvadratkilometr, əhalisi isə, təxminən, 500 mindir. Naxçıvan Muxtar Respublikasının ərazisinin, təxminən, 75 faizi 1000 metrdən daha yuxarı yüksəklikdə yerləşir və Naxçıvan öz əzəmətli dağları ilə tanınır.

Naxçıvan haqqında ilk yazılı məlumata yunan coğrafiyaşünası Ptolomeyin "Coğrafiya" kitabında "Naksuana" kimi rast gəlinir və o, yazır ki, buranın əsası bizim eradan əvvəl qoyulub. İmperiyalar, sultanlıq və xanlıqlar dövrünün əhatəsində Naxçıvan adı bir çox dəfə dəyişdirilib. Nəxşicahan (dünyanın bəzəyi), Nuhçıxan (Nuh Peyğəmbərin diyarı) və sair Naxçıvan sözü ilkin mənbələrdə müxtəlif formalarda göstərilib. Yunanca "Naksuana", pəhləvicə "Naxç", ərəbcə "Nəşəva" kimi səslənib. Naxçıvanın adı ilə bağlı bir çox tədqiqatçıların irəli sürdüyü müxtəlif fikirlərə baxmayaraq, bu diyarın adı daha çox Nuh Peyğəmbər və Böyük Dünya Tufanı ilə bağlıdır.

Nuh əfsanəsinin müqəddəs Qurani-Kərim və İncildə mövcudluğu, həmçinin "Bilqamıs" dastanında və Kiçik Qafqaz dağlarının ən yüksək (Naxçıvanın Ordubad rayonu ərazisində yerləşir), Qapıcıq zirvəsindəki (dəniz səviyyəsindən 3907 metr yüksəklikdə yerləşir) Gəmiqaya qayaüstü yazı və rəsmlərində mövcudluğu reallığı əks etdirir.

Nuh Peyğəmbərin qəbri Naxçıvan şəhərində tapılıb və onun şərəfinə burada türbə ucaldılıb.

Naxçıvan şəhəri qədim ticarət yollarının kəsişməsində yerləşir. Erkən orta əsrlərdə Naxçıvan və Kiçik Asiya, Orta Şərq və Zaqafqaziya ölkələri arasında əlaqələr xüsusilə yaxın olmuşdur. Şəhərin zənginliyi və onun geosiyasi mövqeyi qonşu ölkələrdən buraya tez-tez hücumlar edilməsinə səbəb olmuşdur. Bizim eradan əvvəl I əsrin ortalarında Naxçıvan Bizans imperatoru II İraklinin hücumuna məruz qalmış və dağıdılmışdır. Şəhər monqol hücumları zamanı talanmış, Bizans imperiyası və Ərəb Xilafəti arasında daimi münaqişələrə səbəb olmuşdur. Bütün dövrlərdə Naxçıvan müxtəlif dövlətlərin – Saci, Salari sülalələrinin, Azərbaycan dövləti olan Eldəgizlərin paytaxtı və ən əsas şəhərlərindən biri olmuşdur. Nəhayət, XVIII əsrdə müstəqil xanlıq olmuş və XIX əsrdə Rusiyaya birləşdirilmişdir. SSRİ dağılmağa başlayanda Naxçıvan Litvadan sonra Azərbaycanın tərkib hissəsi kimi SSRİ-dən ayrıldığını elan etdi. Bu gün Azər-



baycanın tərkibində muxtar respublika kimi Naxçıvanın öz Ali Məclisi və Nazirlər Kabineti vardır. Ali Məclisin Sədri burada ən ali vəzifəli şəxsdir.

Qədim dövrlərdə Naxçıvan şəhəri həm də mühüm ticarət mərkəzi idi. Bura öz rəssamları, sənətkarları, xalçaçıları, zərgərləri, şüşə qab sənətkarları, xüsusilə Naxçıvan memarlıq məktəbinin memarları ilə tanınırdı. Fransız səyyahları Pierre Chardine, Dubois de Monpierre və ingilis səyyah Porter qeyd etmişlər ki, Naxçıvan yaxşı qorunub saxlanılan qədim memarlıq abidələri olan gözəl və dəbdəbəli şəhər idi. Türk səyyah Övliya Çələbi yerli hamamlarda hovuzların suyunun hər gün səbətlər dolu qızılgül ilə ətirləndirildiyindən ovsunlandığını deyirdi.

Bu gün Naxçıvanda elm və təhsilin inkişafına xüsusi diqqət yetirilir. Burada hazırda iki universitet, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Müəllimlər İnstitutu fəaliyyət göstərir. Məktəblər də diqqətdən kənar qalmır, köhnə məktəblər təmir olunur, son



texnologiyalar və avadanlıqlarla tam təchiz olunmuş yeni məktəblər tikilir. Şəhərdə Mədəniyyət Sarayı, Dram Teatr, Kukla Teatrı, Xalça Muzeyi, Tarix Muzeyi və digər mədəni müəssisələr fəaliyyət göstərir. Tam təchizatlı Olimpiya-İdman Kompleksi tikilib istifadəyə verilmişdir. Burada iqtisadiyyat sürətlə inkişaf edir, yeni zavodlar, fabriklər və müəssisələr açılmış və çoxlu iş yerləri yaradılmışdır.

Naxçıvanın turizm potensialı çox yüksəkdir. İl ərzində yerli və xarici turistlərə mədəni irs, botanik, ekoloji, sağlamlıq, kurort, biznes və sair kimi bir çox turizm sahələrində xidmətlər göstərilir. Xarici turistlər Naxçıvana İstanbul üzərindən Türk Hava Yollarının təşkil etdiyi mütəmadi reyslər vasitəsilə çata bilərlər. Bundan əlavə, Azərbaycan Hava Yolları Bakıdan Naxçıvana gündə ən az 4 uçuş təşkil edir. Siz buraya həmçinin Rusiyanın Moskva şəhərindən təyyarə ilə səfər edə bilərsiz. İranın Culfa şəhəri və Türkiyənin İqdır şəhərindən avtomobil və ya avtobusla da gələ bilərsiniz.

Naxçıvan dünyaya Möminə xatın məqbərəsi (XII əsr), Yusif Küseyir oğlu türbəsi (XII əsr), Qarabağlar türbə kompleksi (XIV əsr), Əlincə Xanəgahı (XII-XIII əsr), Əshabi-Kəhf (müqəddəs Quranda adı keçir), Aza körpüsü (XVI əsr), Gülüstan türbəsi (XIII əsr), İmamzadə kompleksi (XVI əsr), Əlincə qalası, Gilan şəhərinin qalıqları və sair kimi zəngin memarlıq irsi təqdim edir.



Naxçıvanın həm də qədim sağlamlıq tarixi vardır. Zəngin təbii dərman bitkiləri sayəsində müxtəlif xəstəliklər müvəffəqiyyətlə müalicə edilmiş və bu praktika nəsillərdir davam etməkdədir. Duz mağaralarında yerləşən Duzdağ Fizioterapiya Mərkəzi astma və bronxial sistemi xəstəliklərinin müalicəsində ixtisaslaşmış ən mühüm tibbi mərkəzlərdən biridir. Darıdağ Arsenli Su Müalicəxanası Culfa şəhərindən 8 kilometr məsafədə arsenli su yatağının ərazisində yerləşir və 1978-ci ildə yaradılmışdır. Darıdağ arsenli mineral suyu ilə müxtəlif ürək xəstəlikləri, dayaq-hərəkət aparatı orqanları, periferik əsəb sistemi, dəri xəstəlikləri, qadın xəstəlikləri, qanazlığı və bir çox digər xəstəliklər müalicə edilir. Dünyanın bütün nöqtələrindən bu müalicə mərkəzlərinə üz tutan çoxlu xəstələr tez bir zamanda sağalır. Naxçıvan Muxtar Respublikası bu yerləri tarixi-mədəniyyət və ekoloji turizmin potensial mənbəyi kimi təbliğ və təqdim edir.

Sonda qeyd etmək istərdim ki, Naxçıvan çoxlu tanınmış dövlət xadimləri, siyasi və hərbi liderlər, alimlər, yazıçılar, tarixçilər, filoloqların vətənidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvanda anadan olub.

Naxçıvan mütərəqqi inkişaf edən, ərazisi sürətli internetlə təmin olunmuş, yerli təbii məhsulların istehsalına, alternativ təbabətə, sağlamlıq turizminə xüsusi diqqət verilən milli qürur guşəsidir.

# AMEA Naxçıvan Bölməsində böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyi qeyd edilib



***AMEA Naxçıvan Bölməsində böyük Azərbaycan şairi, ictimai xadim Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.***

Tədbir AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyi tərəfindən birgə təşkil olunub.

Konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" 12 yanvar 2017-ci il tarixli Sərəncamının şairin yaradıcılığının təbliği baxımından böyük əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, sərəncama əsasən ölkədə silsilə tədbirlər təşkil olunur. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyinin YUNESKO və TÜRKSOY miqyasında beynəlxalq səviyyədə qeyd olunması təkcə Molla Pənah Vaqifə deyil, bütünlükdə, Azərbaycan ədəbiyyatına verilən dəyərdir.

Görkəmli söz ustadı Molla Pənah Vaqifin həyat və yaradıcılığı, şəxsiyyəti və ictimai fəaliyyəti barədə məlumat verən İsmayıl Hacıyev onun Azərbaycanın, ümumiyyətlə, Türk dünyasının böyük şairi olduğunu vurğulayıb.

Bölmə sədri 1982-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Şuşa şəhərində şairin məzarı üzərində əzəmətli məqbərəsinin ucaldıldığını xatırladıb. Bildirilib ki, məkrli erməni quldur dəstələri tərəfindən işğal olunan Şuşa şəhərində vəhşicəsinə dağıdılan, talan olunan bütün tarixi-memarlıq, maddi-mədəniyyət abidələrimiz kimi, Vaqifin də məqbərəsi, poeziya evi güllələnib, viran edilib.

Konfransda AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin həyatı və yaradıcılığı", Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigarın "Novator şair", Naxçıvan Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru Hüseyn Həşimlinin "Vaqif lirikasının poetik xüsusiyyətləri", Naxçıvan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, professor Əsgər Qədimovun "Qüdsi Vənəndi yaradıcılığında Molla Pənah Vaqif ənənələri", bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri Ramiz Qasımovun "Azərbaycan poeziyasının inkişafında Vaqif zirvəsi", həmin institutun Folklorşünaslıq şöbəsinin müdiri Elxan Məmmədovun "Molla Pənah Vaqif və folklor" mövzularında məruzələri dinlənilib.

**AMEA Naxçıvan Bölməsinin**
**İnformasiya şöbəsi**

***Bu mövzuda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və "Naxçıvan" Universitetinin birgə təşkilatçılığı ilə ali təhsil ocağında konfrans keçirilib. Konfransı giriş sözü ilə universitetin tərbiyə işləri üzrə prorektoru Əli Yusifov açaraq tədbirin əhəmiyyətindən bəhs edib.***

# Gender münasibətlərində ailənin oriyentasiyası və uşaqların tərbiyəsi

Konfransda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin aparıcı məsləhətçisi Həbibə Talıbovanın "Gender bərabərliyi demokratiyanın inkişafı üçün vacib amillərdəndir", "Naxçıvan" Universitetinin Turizm informasiya mərkəzinin müdiri, psixoloq Şahnaz Məmmədovanın "Ailədaxili ünsiyyətin uşaqların psixologiyasına təsiri", Pedaqogika və psixologiya kafedrasının müəllimi Aygün Rüstəmovanın "Autizmli uşaqların təlim-tərbiyəsində ailənin rolu", Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasının III kurs tələbələri Fatimə Yusiflinin "Gənc nəslin davranış mədəniyyəti" və İsa İsmayılovun "Ailədə uşaqların tərbiyəsi" mövzularında çıxışları dinlənilib.

Bildirilib ki, qadının cəmiyyətdə rolu və əməyi əvəzedilməzdir. Dövlətimiz tərəfindən qadınlara hər zaman qayğı göstərilmiş, onların əməyi yüksək qiymətləndirilib.

Xalqımızın ümummilli lideri Heydər Əliyev qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin mühüm, prioritet vəzifələrindən biri hesab edirdi. Ulu öndər həyatın müxtəlif sahələrində çalışan qadınlarımızın elmi fəaliyyətini, əməyini diqqətlə izləyib, onların hüququnun qorunmasında əlindən gələni əsirgəməyib. Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra vətəndaş cəmiyyətinin inkişafında qadınların rolu artmağa başladı.

Sevindirici haldır ki, müasir Azərbaycanda qadınların hüquqlarının müdafiəsi istiqamətində intensiv işlər görülür. Ölkəmiz 1992-ci il avqustun 4-də "Qadınların siyasi hüquqları haqqında" 1952-ci il BMT Konvensiyasına, 1995-ci il iyunun 30-da BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına, 2001-ci ildə Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün İnkişaf Fondunun "Zorakılıqsız həyat" regional məlumatlandırma kampaniyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürüb.

O da vurğulanıb ki, Azərbaycan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və konvensiyalara qoşulmaqla yanaşı, ölkə daxilində də qadınların hüquq və azadlıqlarının qorunması istiqamətində bir çox normativ-hüquqi aktlar qəbul edib. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Qadın zorakılığı haqqında" qanunlar, Ailə Məcəlləsinə edilən dəyişikliklər deyiklərimizə əyani sübutdur.

Konfransda muxtar respublikada həyata keçirilən gender siyasətindən də ətraflı bəhs edilib, tələbələrin sualları cavablandırılıb.

**Nuray ƏSGƏROVA**

# Dövlət Miqrasiya Xidmətində maarifləndirici tədbir keçirilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Hüseyn Cavid yaradıcılığı" mövzusunda maarifləndirici tədbir keçirilib.***



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birgə təşkil olunan tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Elvin Cavadov belə tədbirlərin əhəmiyyətindən danışıb.

Görüşdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev böyük şairimiz Hüseyn Cavidin həyat və yaradıcılığı haqda danışıb.

Bildirilib ki, qüdrətli sənətkarımız Hüseyn Cavid fikir və düşüncələr aləminin həyatiliyi, heyrətamizliyi, zərifliyi, əlvanlığı, qəlblərə hakim kəsilməsi ilə ədəbiyyat tariximizə əbədi daxil olub. Fəlsəfi-əxlaqi konsepsiyaların mürəkkəbliyi və dərinliyi də Cavid sənətinə xasdır. Sənətkarın yaratdığı obrazlar – Şeyx Sənan, İblis, Azər, Əmir Teymur, Xəyyam, Səyavuş və onlarla başqaları bənzərsizliyi, təkrarolunmazlığı ilə ədəbiyyatımızda əbədiyaşarlıq qazanıb.

Vurğulanıb ki, ötən əsrin 70-ci illərindən etibarən Cavidin əsərləri nəşr olunmağa başlanıb, rus dilində ikicildliyi işıq üzü görüb. Azərbaycanın şəhər və rayonlarında yubiley tədbirləri təşkil olunub, əsərləri respublikamızın teatrlarında səhnəyə qoyulub, adına küçələr, məktəblər, kitabxanalar verilib. 1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilib. O vaxt Naxçıvanda Ali Məclisin Sədri işləyən ümummilli liderimiz yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış edib, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunub.

Görkəmli dövlət xadimi Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ildə Naxçıvanda böyük sənətkarın məqbərəsi ucaldılıb. Son illər Hüseyn Cavid haqqında çoxsaylı tədqiqat əsərlərinin, monoqrafiyaların yazılması böyük sənətkarın yaradıcılığına qayğının göstəricisidir. Müstəqillik illərində Hüseyn Cavid irsinə maraq daha da artıb. Son illər böyük sənətkarın əsərləri 12-dən çox dilə tərcümə olunaraq çap edilib.

Ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci ildə imzaladığı "Hüseyn Cavidin 125 illik yubileyi haqqında" Sərəncam, eləcə də "Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında" 2012-ci il 16 fevral tarixli Sərəncamı Hüseyn Cavid yaradıcılığına göstərilən növbəti dövlət qayğısıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 20 fevral tarixli Sərəncamı ilə "Hüseyn Cavidin 130 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planına əsasən, simpozium keçirilib, Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Şeyx Sənan" əsəri səhnəyə qoyulub, "Naxçıvan" jurnalının xüsusi nömrəsi ədibin yubileyinə həsr olunub, silsilə tədbirlər təşkil edilib. AMEA Naxçıvan Bölməsində, ali təhsil ocaqlarında, mədəniyyət müəssisələrində elmi konfranslar təşkil olunub, kütləvi informasiya vasitələrində böyük ədibin həyat və yaradıcılığı geniş şəkildə işıqlandırılıb.

Daha sonra tədbir iştirakçıları Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini ziyarət ediblər.

**Nail ƏSGƏROV**

# Muzey bələdçiləri üçün seminar-treninqlər davam etdirilir

***Növbəti belə seminar-treninq Culfa rayonundakı "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində keçirilib.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi seminar-treninqdə nazirliyin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edib. Qeyd olunub ki, muzey bələdçiləri üçün seminar-treninqlərin məqsədi muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Bu gün muzeylərimizdə hazırlıqlı, bilikli, xarici dilləri bilən, işlədiyi mədəniyyət ocağı haqqında ətraflı məlumata malik bələdçilər çalışırlar.

Muzey bələdçiləri muzey işi və muxtar respublikada gedən yeniliklərdən xəbərdar olmalı, gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün daim öz üzərlərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidirlər.

Seminar-treninq başa çatdıqdan sonra "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin ekspozisiyasına baxış olub. Tədbir iştirakçılarına məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən qala bərpa olunub və burada muzey yaradılıb.

Qeyd edilib ki, muzeyin fondunda 250 eksponat qorunub saxlanılır, bunlardan da çoxu ekspozisiyada nümayiş etdirilir.

Sonra ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

# Ümumtəhsil məktəblərində yaz mövsümünün tibbi müayinələri başa çatıb

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakterli tibbi yoxlamalar aparır.***

Bütövlükdə, muxtar respublika üzrə 40 min 349 şagird tibbi müayinələrə cəlb olunub. Müayinələrin normal təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçiləri ilə dispanserizasiya barədə söhbətlər aparılıb, lazımi izahatlar verilib. Şagirdlər əvvəlcədən məktəb həkimi tərəfindən müayinələrdən keçirilərək qruplaşdırılıb.

Müayinələri aparmaq üçün ixtisaslı həkimlərdən ibarət briqada təşkil edilib. Şagirdlər ixtisas həkimi tərəfindən yoxlanılıb.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən isə bu il Naxçıvan şəhərindəki tam orta məktəblərin 11 min 745 şagirdi yaz mövsümünün tibbi müayinələri ilə əhatə edilib. 1769 nəfər dispanser qeydiyyatına götürülüb. Onlar Mərkəzi Uşaq Xəstəxanasına dəvət olunub, daha ətraflı və dərin müayinədən keçirilib, xəstəliyi dəqiqləşdirilən şagirdlər üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirləri təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# 30 may 2017-ci il tarixdə Naxçıvan şəhərində saat $11^{00}$-da hərraca çıxarılacaq müəssisələr haqqında məlumat

| S/s | Müəssisənin adı | Ünvanı | Əmlakın ilkin qiyməti (manat) | Əmlakın satış qiyməti (manat) | (10 %) beh |
|---|---|---|---|---|---|
| 1. | "Duzdağ" hoteli | Duzdağ massivi | 17.288.686,78 | 12.966.515,10 | 1.296.651,51 |
| 2. | Tədris-Ticarət Mərkəzi | Naxçıvan şəhəri | 1.534.424,73 | 1.150.818,60 | 115.081,86 |
| 3. | "Sədərək Taxıl Emalı Müəssisəsi" MMC | Sədərək rayonu | 122.201,46 | 61.100,73 | 6.110,10 |

**Qeyd:** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd
2. Müəyyən edilmiş formada sifariş
3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.

**Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42.**
**Əlaqə nömrələri: 545-01-38, 545-02-36**

*İdman xəbərləri*

# Muxtar respublikanı ölkə çempionatında təmsil edəcək komandalar məlum olub

***Naxçıvan şəhərindəki Gənclər Mərkəzində gənclər arasında "Xəmsə" Milli İntellektual Oyununun IX Azərbaycan çempionatının Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi keçirilib.***

Birinciliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Naxçıvan Muxtar Respublikası Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyi təşkil edib.

Yarışa start verilməzdən öncə Gənclər və İdman Nazirliyinin əməkdaşı İlahə Haqverdiyeva və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilov çıxış edərək oyunun keçirilməsində məqsədin gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olduğunu bildirib və gənclərə uğurlar arzulayıblar.

Oyun 2 mərhələ və finaldan ibarət olub. Birinci mərhələdə "Təbriz", "Araz", "İncilər" və "Turan" komandaları, ikinci mərhələdə isə "Savalan", "Vətən", "Nəqşicahan" və "Zəka" komandaları mübarizə aparıblar. Hər iki mərhələdə birinci və ikinci yerləri tutmuş "Təbriz", "Turan", "Savalan" və "Vətən" komandaları finala vəsiqə qazanıblar. Yekunda "Təbriz" komandası qalib olub. "Savalan" komandası 2-ci, "Turan" komandası isə 3-cü yerə layiq görülüb.

Qaliblərə təşkilatçıların diplom, fəxri fərman, kubok və bilik kitabları təqdim olunub.

Qeyd edək ki, I, II və III yerləri tutmuş komandalar Balakən şəhərində keçiriləcək "Xəmsə" Milli İntellektual Oyununun IX Azərbaycan çempionatında muxtar respublikamızı təmsil edəcəklər.

# Stolüstü tennis üzrə birinciliyə yekun vurulub

*"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında stolüstü tennis üzrə birincilik keçirilib.*



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Naxçıvan Şəhər Təhsil Şöbəsi, İlham Əliyev adına Olimpiya-İdman Kompleksi və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 17 komanda mübarizə aparıb.

Birinciliyin nəticəsinə əsasən, 10 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərini məğlub edərək əsas mükafatı qazanıb. 5 nömrəli tam orta məktəbin komandası ikinci, 6 və 7 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü olublar.

Sonda qalib komandalara təşkilatçıların diplomları təqdim olunub.

# Qaliblər mükafatlandırılıb

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində sağlamlıq imkanları məhdud şəxslər arasında armresliniq (qol güləşi) üzrə muxtar respublika birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının təşkil etdiyi birincilikdə 20 idmançı mübarizə aparıb. Yarışı keçirməkdə məqsəd sağlamlıq imkanları məhdud şəxslər arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olmaq, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün idmanın, o cümlədən armresling idman növünün inkişaf etdirilməsidir.

Birincilik iştirakçıları 75 kiloqramadək və 75 kiloqramdan yuxarı çəki dərəcələrində mübarizə aparıblar.

Yarışın nəticəsinə əsasən, 75 kiloqramadək idmançıların mübarizəsində Turan Hüseynov bütün rəqiblərinə qalib gələrək əsas mükafatı qazanıb. Allahverdi Məmmədov ikinci, Məmili Məmmədov isə üçüncü olub. 75 kiloqramdan yuxarı çəki dərəcəsində İlqar Sadiqov qalib adını qazanıb. Digər iki pillədə Ələkbər Salmanov və Nəriman Mehdiyev qərarlaşıblar.

Sonda idmançılar diplom və hədiyyələrlə təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

## İtmişdir

Bağırov Cabir Bilal oğlunun adına olan, Naxçıvan şəhərinin Atatürk küçəsində yerləşən mağazanın 215 inventar nömrəli texniki pasportu və MH-0050675 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

"Nəxşicahan Tənbəki Tobacco" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 0200842831 nömrəli VÖEN və dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 346